

*Bir hadisənin qarşısını almaq, o hadisə baş verəndən sonra onun nəticələrini aradan götürməkdən daha asandır.*
Heydər ƏLİYEV

# FHN — Fövqəladə Hallar Nazirliyinin qəzeti

Newspaper of MES | Газета МЧС

№ 10 (608) 15 mart 2019-cu il Qəzet 2006-cı il iyunun 15-dən çıxır www. fhn. gov. az/newspaper/


# VII Qlobal Bakı Forumu işə başlayıb

## Azərbaycan Prezidenti İlham Əliyev Forumun açılışında iştirak edib

***Martın 14-də Azərbaycanın paytaxtında Prezident İlham Əliyevin himayəsi və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə VII Qlobal Bakı Forumu işə başlayıb.***

AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Forumun açılış mərasimində iştirak edib.

Martın 16-dək davam edəcək VII Qlobal Bakı Forumunun işində 55 ölkədən 500-dən çox nümayəndə iştirak edir. "Dünyanın yeni xarici siyasəti" mövzusunda keçirilən Foruma hazırda fəaliyyətdə olan 5 prezident, 1 baş nazir, 2 baş nazirin müavini, 42 sabiq dövlət başçısı və baş nazirlər, çoxsaylı analitiklər, jurnalistlər, gənc liderlər toplaşıblar. Forumda 10 müxtəlif sessiya zamanı iştirakçılar tərəfindən qlobal və regional əhəmiyyət daşıyan məsələlər müzakirə ediləcək. Dünyada mühüm beynəlxalq platformaya çevrilən Qlobal Bakı Forumu çərçivəsində beynəlxalq əhəmiyyət daşıyan məsələlər ətrafında fikir mübadiləsi aparılacaq. Bu mövzular arasında "Qlobal siyasətin dəyişməsində böyük güclərin rolu", "Davamlı inkişaf çağırışları", "Təhlükəsizlik naminə orta Şərq əməkdaşlığı", "Müasir qərarların qəbul edilməsində elm və mədəniyyətin rolu" və digərləri var. Forumun əsas panel iclaslarından biri də gənc liderlərin qlobal siyasətdə roluna həsr olunacaq.

Yeddinci Qlobal Bakı Forumunu Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri İsmail Serageldin açaraq Forumun əhəmiyyətini vurğuladı. Dünyada sabitliyin olmadığı bir vaxtda planetimizi narahat edən mühüm məsələləri müzakirə etmək imkanı baxımından Bakı Forumunun çox vacib tədbir olduğunu deyən Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri sözü Azərbaycan Prezidenti İlham Əliyevə verdi.

Azərbaycan Prezidenti İlham Əliyev Forumda nitq söylədi.




### Prezident İlham Əliyevin nitqi

-Əziz xanımlar və cənablar.

Əziz qonaqlar.

Əziz dostlar.

Azərbaycana xoş gəlmisiniz. Sizin hamınızı görməyimə çox şadam. Bu mühüm beynəlxalq tədbirdə bizimlə birlikdə olduğunuza görə sizə təşəkkür edirəm. Mən, ilk növbədə, Nizami Mərkəzinin qlobal beynəlxalq instituta çevrilməsinə verdikləri əhəmiyyətli töhfəyə görə dünən görüş keçirdiyim Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədrləri - xanım Vike-Freyberqaya, cənab Serageldinə və İdarə Heyətinin üzvlərinə təşəkkürümü bildirmək istərdim.

Bu gün Qlobal Bakı Forumu qlobal gündəlikdə duran aktual məsələlərlə məşğul olan ən mühüm beynəlxalq platformalardan biridir. Əvvəlki forumların mövzuları qlobal məsələlərin bugünkü gündəliyini əks etdirir. Düşünürəm ki, bu, xarici siyasətlə bağlı məsələlərlə, - bu, yeni xarici siyasət adlandırılır, - məşğul olmaq üçün çox yaxşı seçimdir. Çünki son forumdan bəri, xüsusilə ölkələr arasında münasibətlərdə, dünyada təhlükəsizlik və proqnozlaşdırıla bilmə ilə bağlı məsələlərdə çox şey dəyişib. Mən çox şadam ki, forumun çoxsaylı iştirakçısı var. Forumda 55 ölkədən 500-dən çox nümayəndə iştirak edir. Qonaqlarımızın arasında 5 hazırkı prezident, 1 hazırkı baş nazir, 2 baş nazirin müavini və 42 sabiq dövlət və hökumət başçısı, görkəmli siyasətçilər, vətəndaş cəmiyyətinin təmsilçiləri, jurnalistlər, alimlər, gənc liderlər var.

Bu gün bu zalda böyük intellektual potensial var, bu da, əslində, Forumun əhəmiyyətini əks etdirir. Qlobal gündəlikdə çox sayda beynəlxalq tədbir, konfrans var. Lakin keyfiyyət iştirakçıların siyahısına, onların təcrübəsinə və intellektual potensialına görə ölçülür. Bu səbəbdən, mən düşünürəm ki, Qlobal Bakı Forumunun dünya xəritəsində nadir yeri var. Əminəm ki, qarşıdakı günlərdə müzakirə olunacaq məsələlər beynəlxalq münasibətlərin gələcəyi, dünyanın gələcəyi ilə bağlı qərar verənlərin diqqətini cəlb edəcək.

Azərbaycanın xarici siyasəti barədə danışarkən, mən deyərdim ki, o, çox dəyişməyib. Biz Azərbaycanın yeni xarici siyasəti barədə danışa bilmərik. Lakin sözsüz ki, regionda, dünyada vəziyyət dəyişir və biz xarici siyasət təşəbbüslərimizi dəyişən dünyaya uyğunlaşdırırıq. Lakin bizim xarici siyasətimiz əsas etibarilə sabit, proqnozlaşdırıla bilən və müstəqildir. O, bizim milli maraqlarımıza əsaslanır. Tərəfdaşlıq, qarşılıqlı faydalı əməkdaşlıq vasitəsilə regionumuzda və daha geniş coğrafiyada təhlükəsizlik, sabitlik istiqamətində ölkələrlə yaxın əlaqələrin qurulması Azərbaycanın prioritetlərdən biridir. Ona görə də Azərbaycan sonuncu Forumdan bəri xarici siyasət istiqamətləri ilə bağlı təşəbbüslərini davam etdirib. Düşünürəm ki, biz ənənəvi tərəfdaşlarımızla əlaqələrimizi gücləndirməyə, yeni dostlar qazanmağa, yeni körpülər tikməyə müvəffəq olmuşuq. Əlbəttə ki, istənilən ölkə, o cümlədən Azərbaycan üçün qonşularla münasibətlərin qurulması əsas prioritetdir. Bu mənada, sonuncu Forumdan bəri bizim əlaqələrimiz güclənib. Biz qonşularımızla qarşılıqlı maraqlara, qarşılıqlı hörmətə əsaslanan çox məhsuldar işçi münasibətlər qurmuşuq. Bu, nəqliyyat, enerji təhlükəsizliyi, ticarət və investisiya sahələrində daha çox körpü qurmağa kömək edir. Bu səbəbdən, bizim qonşu ölkələrlə ənənəvi əlaqələrimiz regional təhlükəsizliyi təmin edir.

Regional təhlükəsizlikdən söhbət açarkən, biz, əlbəttə ki, Ermənistanla Azərbaycan arasındakı münaqişədən danışmalıyıq. Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərinin 20 faizinin Ermənistan tərəfindən işğalı davam edir. Bu işğal nəticəsində Azərbaycanın tarixi hissəsi olan Dağlıq Qarabağ və ölkəmizin digər 7 rayonu işğal altındadır, bir milyondan çox qaçqın və məcburi köçkün işğaldan əziyyət çəkir. Xalqımız etnik təmizləməyə məruz qalıb. İşğal olunmuş ərazilərdəki bütün tarixi abidələrimiz Ermənistan silahlı qüvvələri tərəfindən dağıdılıb və bu, işğal olunmuş ərazilərə iki dəfə faktaraşdırıcı missiya göndərmiş ATƏT-in hesabatında öz əksini tapıb. Azərbaycan torpaqlarının işğalı beynəlxalq hüququn, əsas beynəlxalq təşkilatların müvafiq qətnamələrinin və qərarlarının kobud şəkildə pozulmasıdır. BMT Təhlükəsizlik Şurası Ermənistan qoşunlarının ərazilərimizdən dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul edib və onlar Ermənistan tərəfindən yerinə yetirilmir. BMT Baş Assambleyası, ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Qoşulmama Hərəkatı və digər təşkilatlar oxşar qətnamə və qərarlar qəbul ediblər. Onlar beynəlxalq hüquqa, ədalətə əsaslanır və münaqişənin sülh yolu ilə həlli üçün hüquqi baza yaradır. Status-kvo qəbuledilməzdir. Danışıqları təşkil etmək üçün mandata sahib olan ATƏT-in Minsk qrupu ölkələrinin prezidentləri dəfələrlə bəyan ediblər ki, status-kvo qəbuledilməzdir və biz bunu tam dəstəkləyirik. Status-kvo dəyişməlidir və bunu etmək üçün Ermənistan öz qoşunlarını Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarmağa başlamalı, qaçqın və məcburi köçkünlərə öz evlərinə qayıtmağa imkan yaratmalıdır.

Ermənistan hökuməti danışıqların formatını dəyişmək üçün cəhdlər edib və biz hələ də bu cəhdləri görürük. Bu, tamamilə qəbuledilməz və qeyri-effektivdir. Biz bunu danışıqlar prosesini əngəlləmək cəhdi hesab edirik. Bu cür düşünən tək biz deyilik. Şadıq ki, beynəlxalq təşkilatlar bu fikri paylaşır. Bir qədər əvvəl ATƏT-in Minsk qrupunun həmsədrləri bəyanat yaydılar və faktiki olaraq Ermənistana açıq mesaj göndərdilər ki, onların danışıqlar formatını dəyişdirmək cəhdləri qəbuledilməzdir. Ondan bir neçə gün əvvəl Avropa İttifaqının yüksək rütbəli rəsmiləri eyni bəyanatla çıxış etdilər. Danışıqlar formatı uzun illər ərzində işlənib hazırlanıb və onu dəyişmək üçün birtərəfli qaydada edilən istənilən cəhd danışıqlar prosesini əngəlləmək cəhdi kimi qiymətləndirilir və bütün məsuliyyət bunu etməyə çalışan tərəfin üzərinə düşür. Bu səbəbdən, birincisi, danışıqlar formatı dəyişdirilə bilməz və ikincisi, danışıqlar nəticəyönümlü olmalıdır, sadəcə, danışıqlar xatirinə olmamalıdır. Azərbaycan bu prosesi davam etdirməyə hazırdır və danışıqların nəticəsi olaraq bizim ərazi bütövlüyümüz bərpa edilməlidir. Ərazi bütövlüyü beynəlxalq hüququn fundamental prinsipidir. Ərazi bütövlüyü ilə öz müqəddəratını təyinetmə arasındakı balans BMT-nin Nizamnaməsində, Helsinki Yekun Aktında çox aydın şəkildə izah olunub. Öz müqəddəratını təyinetmə ölkələrin ərazi bütövlüyünü pozmamalıdır. Ona görə də, münaqişə beynəlxalq hüququn normalarına, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə əsasən və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməlidir.

**(Ardı səhifə 2-də)**

# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Fransada səfərdə olub

***Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva martın 11- 12-də Fransa Respublikasında səfərdə olub.***

AZƏRTAC xəbər verir ki, Fransa Respublikasında səfərdə olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyeva martın 11-də Parisdə "Rothschild Global Financial Advisory" şirkətinin rəhbəri David dö Rotşild ilə görüşüb.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva "Rothschild Global Financial Advisory" şirkətinin rəhbəri David dö Rotşild ilə görüşündən məmnun olduğunu dedi. Birinci vitse-prezident Mehriban Əliyeva bildirdi ki, XIX əsrdə Azərbaycanda çox məşhur olan Rotşildlər 1883-cü ildə "Xəzər-Qara dəniz neft sənayesi və ticarət cəmiyyəti"ni təsis etmişdilər. "Azərbaycan - Bakı o zaman neft sənayesinin mərkəzi idi və Rotşild qardaşları Bakıya böyük investisiya gətirmişdilər", - deyən Mehriban Əliyeva bütün bunların Bakıda neft sənayesinin daha da canlanmasına səbəb olduğunu diqqətə çatdırdı. Bununla yanaşı, Rotşild qardaşlarının xeyriyyəçiliklə də məşğul olduqlarını və Bakıda çoxlu gözəl binalar inşa etdiklərini deyən Azərbaycanın Birinci vitse-prezidenti əməkdaşlığın ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra da davam etdirildiyini bildirdi, Azərbaycan Mərkəzi Bankı ilə "Rothschild Global Financial Advisory" şirkəti arasında imzalanacaq strateji əməkdaşlıq haqqında sazişin əhəmiyyətini vurğuladı. Mehriban Əliyeva David dö Rotşildi ölkəmizə səfərə dəvət etdi.

"Rothschild Global Financial Advisory" şirkətinin rəhbəri David dö Rotşild bu görüşdən şad olduğunu bildirərək, Rotşildlərin Azərbaycandakı fəaliyyətinin tarixi köklərinin olduğunu dedi. "Ailəmizin Sizin ölkənizdəki fəaliyyəti barədə bilirik və hesab edirəm ki, onlar tarixdə iz qoyan fəaliyyət göstəriblər", - deyən David dö Rotşild Azərbaycana səfər dəvətini məmnunluqla qəbul etdi.

Görüşdə əməkdaşlıqla bağlı fikir mübadiləsi aparıldı.

Martın 11-də Fransa Respublikasında səfərdə olan Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva "Suez Groupe" şirkətinin beynəlxalq inkişaf üzrə icraçı vitse-prezidenti Erik Qebali ilə görüşüb.

Görüşdə Azərbaycan ilə "Suez Groupe" şirkəti arasında ətraf mühit, ekologiya və digər sahələrdə əməkdaşlığın perspektivləri müzakirə olundu, ikitərəfli əlaqələrin müxtəlif istiqamətlərdə inkişafı ilə bağlı fikir mübadiləsi aparıldı.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti



Mehriban Əliyeva martın 11-də Parisdə Fransanın Milli Xərçəng İnstitutunun təsisçisi və keçmiş prezidenti professor David Hayat ilə görüşüb.

Görüşdə onkoloji xəstəliklərin qarşısının alınması, bu sahədə təcrübə mübadiləsinin aparılması və yeni əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsi ilə bağlı geniş fikir mübadiləsi aparıldı.

Həmçinin görüşdə iki ölkənin onkologiya mərkəzləri arasında sıx əməkdaşlığın qurulmasının və birgə layihələrin həyata keçirilməsinin zəruriliyi vurğulandı.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Fransaya səfəri çərçivəsində bu ölkənin Baş naziri Eduard Filip ilə təkbətək görüşü olub.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanı Fransanın Baş naziri Eduard Filip Matinyon sarayında qarşıladı.

Sonra birgə foto çəkdirildi.

Daha sonra Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva ilə Fransanın Baş naziri Eduard Filipin təkbətək görüşü oldu.

Fransanın Baş naziri ölkələrimiz arasında siyasi, iqtisadi və digər sahələrdə əlaqələrin uğurla inkişaf etdiyini bildirdi və əməkdaşlıq üçün yaxşı perspektivlərin olduğunu dedi. Eduard Filip Azərbaycan Prezidenti İlham Əliyevin ötən ilin iyulunda Fransaya səfərinin və səfər çərçivəsində Prezident Emanuel Makronla görüşünün ikitərəfli əlaqələrin inkişafında mühüm rol oynadığını vurğuladı. Fransanın Baş naziri Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın da ikitərəfli münasibətlərin inkişafına mühüm töhfələr verdiyini bildirdi.

Ölkəmizin böyük iqtisadi potensiala malik olduğunu deyən Eduard Filip fransız şirkətlərinin Azərbaycanın neft və qeyri-neft sektorunda çalışdıqlarını dedi, bu şirkətlərin Azərbaycan bazarında daha fəal olmasının önəmini vurğuladı.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva ölkələrimiz arasında əlaqələrin inkişafından məmnunluğunu bildirdi, bu səfərin ikitərəfli əməkdaşlığın inkişafına mühüm töhfə verəcəyinə əminliyini ifadə etdi. İqtisadi sahədə əməkdaşlıq üçün böyük potensialın olduğunu deyən Mehriban Əliyeva Azərbaycanda 59 fransız şirkətinin fəaliyyət göstərdiyini diqqətə çatdırdı və fransız şirkətlərini ölkəmizdə daha fəal olmağa çağırdı. Azərbaycandakı iqtisadi inkişaf proseslərindən danışan Mehriban Əliyeva ölkəmizin Dünya Bankının "Doing Business" hesabatında 32 pillə irəliləyərək 25-ci yerdə qərarlaşdığını və 10 ən islahatçı ölkə sırasında olduğunu bildirdi. Azərbaycanın Birinci vitse-prezidenti bu il hökumətlərarası komissiyanın toplantısının keçirilməsinin önəmini vurğuladı. Humanitar, mədəniyyət, elm sahələrində əməkdaşlıqdan danışarkən Mehriban Əliyeva bildirdi ki, Azərbaycanda fransız dilinə və ədəbiyyatına böyük maraq var, ölkəmizin 300-dən çox məktəbində fransız dili tədris olunur. Bundan əlavə, Azərbaycan Dillər Universitetində fransız dili və ədəbiyyatı mərkəzi, Bakı Slavyan Universitetində fransız dili mərkəzi, Bakı Fransız Liseyi və Fransız-Azərbaycan Universiteti uğurla fəaliyyət göstərir.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ölkəmizin mövqeyini bəyan edən Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva bildirdi ki, hazırkı status-kvo qəbuledilməzdir. Münaqişənin tənzimlənməsi ilə bağlı BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi var və münaqişə bu qətnamələr əsasında, beynəlxalq hüququn normaları, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır.

Baş nazir Eduard Filip Fransanın sülh danışıqlarına sadiq qaldığını və münaqişənin beynəlxalq hüquq çərçivəsində həllinə tərəfdar olduğunu bildirdi.

Görüşdən sonra Birinci vitse-prezident Mehriban Əliyevanın və Baş nazir Eduard Filipin iştirakı ilə Azərbaycan-Fransa sənədlərinin imzalanması mərasimi keçirildi.

Azərbaycan Respublikası ilə Fransa İnkişaf Agentliyi arasında "Dəmir yolu sektorunun inkişafı proqramı çərçivəsində Şimal-Cənub nəqliyyat dəhlizinin Sumqayıt-Yalama dəmir yolu xəttinin yenidən qurulmasına dair konvensiya"nı Azərbaycanın maliyyə naziri Samir Şərifov və Fransanın Avropa və Xarici İşlər Nazirliyinin dövlət katibi Jan-Batist Lömuan imzaladılar.

"Azərbaycan Mərkəzi Bankı ilə "Rotchild & Cie" Bankı arasında Strateji Əməkdaşlıq Sazişi"ni Mərkəzi Bankın sədri Elman Rüstəmov və "Rotchild & Cie" Bankının baş direktoru Aryel Malard dö Rotşild imzaladılar.

"Əməliyyat Nəzarəti Mərkəzinin yaradılmasına dair araşdırma müqaviləsi"ni və "Xocasən" deposunun siqnalizasiya və telekommunikasiya sisteminin reallaşdırılmasına dair müqavilə"ni "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin sədri Zaur Hüseynov və "Thales International" şirkətinin baş direktoru Rafael Eskinazi imzaladılar.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva martın 12-də Parisdə Fransa Senatının sədri Jerar Larşe ilə görüşüb.

Fransa Senatının sədri Jerar Larşe Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanı qarşıladı.

Mehriban Əliyeva Senatda Fransa-Azərbaycan dostluq qrupunun sədri və müşavirlər ilə görüşdü.

Sonra Azərbaycanın birinci vitse-prezidenti Mehriban Əliyeva ilə Fransa Senatının sədri Jerar Larşenin görüşü oldu.

**(Ardı səhifə 2-də)**

FHN Fövqəladə hallar
№ 10 (608)

# VII Qlobal Bakı Forumu işə başlayıb

(Əvvəli səhifə 1-də)

Bizim xarici siyasət prioritetlərimiz, həmçinin beynəlxalq təşkilatlarla əlaqələri əhatə edir. Biz müxtəlif beynəlxalq təşkilatlar arasında körpülər yaradan müxtəlif təşəbbüslərdə fəal şəkildə iştirak edirik. İslam Əməkdaşlıq Təşkilatının və Avropa Şurasının üzvü olan az sayda ölkələrdən biri olaraq biz bu iki təşkilat arasında çox tərəfdaşlıq qurmaq üçün bu imkandan istifadə edirik. Azərbaycan İslam Əməkdaşlıq Təşkilatında İslam həmrəyliyinin gücləndirilməsi, bəzi üzv ölkələr arasında gərginliyin azaldılmasında mühüm rol oynayır. Biz səylərimizin nümayişi olaraq iki il bundan əvvəl IV İslam Həmrəyliyi Oyunlarını uğurla keçirdik. Ondan iki il əvvəl Azərbaycan birinci Avropa Oyunlarını keçirən ölkə oldu. Təsəvvür edirsinizmi, biz iki il ərzində eyni şəhərdə həm Avropa Oyunlarını, həm də İslam Həmrəyliyi Oyunlarını keçirdik. Bu, əslində, bizim beynəlxalq arenadakı rolumuzu, ölkələri və sivilizasiyaları yaxınlaşdırmaq istiqamətində səylərimizi əks etdirir. Biz Avropa İttifaqının 9 üzv ölkəsi ilə strateji tərəfdaşlığı bəyannamələr və ya razılaşmalar imzalamışıq və qəbul etmişik. Bu, üzv ölkələrin üçdə biridir və həmçinin bizim Avropa ölkələri ilə fəal əməkdaşlığımızı nümayiş etdirir. Biz Ötən il Avropa İttifaqı ilə əməkdaşlığımızın bütün əsas sahələrini əhatə edən, tərəfdaşlıq prioritetləri adlanan çox mühüm bir sənədi parafladıq. Bu sənəddə, xüsusilə, Ermənistanla Azərbaycan arasındakı münaqişənin həlli ilə bağlı məqam aydın əksini tapıb. Bu sənəddə Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığına tam dəstək ifadə olunur. Ona görə də, Ermənistanla münaqişəyə gəlincə bir daha deməliyəm ki, bütün aparıcı beynəlxalq təşkilatlar münaqişənin həllini bu prinsiplər əsasında görür. Münaqişənin həllinin yeganə yolu Azərbaycanın ərazi bütövlüyünün bərpasıdır.

Azərbaycan müxtəlif ölkələrlə yaxın əməkdaşlıq imkanından istifadə edərək Bakı prosesinə start verdi. Ötən il biz Bakı prosesinin 10-cu ildönümünü qeyd etdik. Bu, bizim İslam Əməkdaşlıq Təşkilatına və Avropa Şurasına üzv ölkələrin mədəniyyət nazirlərini birgə toplantıya dəvət etməyimizlə başladı. Bu, çox uğurlu oldu və beləliklə, növbəti il biz daha bir görüş keçirdik və sonra, BMT tərəfindən dəstəklənən bu format Bakı prosesi adlandırıldı. Bu, 100-dən çox ölkəni əhatə edən həmin iki böyük beynəlxalq təşkilat arasında qarşılıqlı əlaqə və müzakirələrin yeganə formatıdır.

Multikulturalizm Azərbaycanın dövlət siyasətidir. Azərbaycan dünyada multikulturalizm mərkəzlərindən biri kimi tanınır. Bunun tarixi kökləri var. Əsrlər boyunca Azərbaycan müxtəlif dinlərin və etnik qrupların nümayəndələrinin sülh və əmin-amanlıq şəraitində yaşadığı yer olub. Biz fəxr edirik ki, müstəqilliyimiz bərpa olunandan sonra bu meyil gücləndi. Biz bu ideyaları qlobal arenada təbliğ etməyə çalışırıq. Ona görə də biz çoxsaylı tədbirlər, beynəlxalq konfranslar, mədəniyyətlərarası dialoq forumu, dünya dini liderlərinin forumu, BMT Sivilizasiyalar Alyansının forumu, Bakı Humanitar Forumu və bir çox başqa beynəlxalq tədbirlər təşkil edərək, xüsusilə fərqli fikirlər gördüyümüz zaman əsas diqqəti multikulturalizmlə bağlı məsələlərə yönəldirik. Düşünürəm ki, Azərbaycanın nümunəsi açıq şəkildə nümayiş etdirir ki, multikulturalizm dünyanı inkişaf etdirməyin, gərginlikləri azaltmağın, əməkdaşlığı və qarşılıqlı anlaşmanı gücləndirməyin yeganə yoludur. Azərbaycan nisbətən gənc müstəqil ölkədir. Lakin, biz beynəlxalq ictimaiyyətdən çox güclü dəstək alırıq. Bunun sübutu olaraq, mən bir neçə il əvvəl Azərbaycanın 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsini qeyd edərdim. Bu, onu göstərir ki, beynəlxalq ictimaiyyətin mütləq əksəriyyətinin Azərbaycana böyük dəstəyi və etimadı var. BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi biz təhlükəsizlik və mədəniyyətlərarası dialoqla əlaqədar əhəmiyyətli məsələlərin həllində çox mühüm rol oynadıq. Biz, həmçinin qlobal təhlükəsizlik sahəsində rol oynayırıq. Biz sülhməramlı əməliyyatlarda iştirak edirik. Bu yaxınlarda biz Əfqanıstanda təhlükəsizliyi təmin edən hərbçilərimizin sayını artırdıq. Biz, həmçinin koalisiya qüvvələrini çox mühüm nəqliyyat və logistika dəstəyi ilə təmin edirik. Azərbaycanın üzvü olduğu Şimal paylaşdırma şəbəkəsi çox etibarlı təchizat marşrutudur. Bu, həm də müasir infrastruktura, xüsusilə nəqliyyata investisiyaların yatırılması sayəsində mümkün olub. Sonuncu Qlobal Forumdan sonra keçən dövrdə biz Xəzər dənizinin Azərbaycan sahilində böyük dəniz ticarət limanının açılışını etdik. Bu dəniz limanı böyük həcmdə - ilkin mərhələdə 15 milyon tondan 25 milyon tonadək yükləri nəql etmək qabiliyyətinə malikdir və ölkələri yaxınlaşdırmaq baxımından çox mühüm rol oynayır.

Xarici siyasətdən danışarkən, əlbəttə ki, bizim bu siyasətin mahiyyətinə ehtiyacımız var. Xarici siyasətimiz, siyasi səylərimiz olmadan Azərbaycanın artıq sahib olduğu güclü nəqliyyat əlaqələrini qurmaq mümkün olmazdı. Bizim ölkəmizi regional nəqliyyat mərkəzinə çevirməklə bağlı bir neçə il bundan əvvəlki hədəflərimiz artıq öz nəticələrini verir. Azərbaycan Şərq-Qərb nəqliyyat dəhlizinin fəal iştirakçısıdır. 2017-ci ildə biz Gürcüstandan keçməklə Azərbaycan və Türkiyə arasında dəmir yolu xəttinin açılışını etməklə, Avropa dəmir yolu ilə Asiya dəmir yolunu birləşdirdik. Ötən il dəniz limanının açılışı bu nəqliyyat şəbəkəsinin daha bir elementidir. Biz artıq Asiya ölkələrindən, Mərkəzi Asiyadan yüklər qəbul edirik. Biz bu yaxınlarda artıq Əfqanıstanın təbliğ etdiyi Lapis-Lazuli dəmir yolu və Şərq-Qərb dəhlizi ilə fiziki əlaqə əldə etdik. Biz artıq yeni mənbələrdən yüklər qəbul edirik. Bu, təkcə iqtisadi mənfəət deyil, həm də ölkələr arasında əlaqə, qarşılıqlı bağlılıq və yaxın əməkdaşlıq deməkdir. Beləliklə, nəqliyyat sahəsi beynəlxalq əlaqələrin mühüm sektorudur və o, çox yaxşı tərəfdaşlıq ruhu yaradır.

Qlobal təhlükəsizlik üçün mühüm əhəmiyyət kəsb edən daha bir sahə enerji sektorudur. Azərbaycan enerji təhlükəsizliyinə çox investisiya yatırır. Aparıcı enerji şirkətləri ilə bizim birgə layihələrimiz həm xalqımıza, ölkəmizə fayda verir, həm də Azərbaycanda, qonşu ölkələrdə on minlərlə iş yeri yaradır və onlar beynəlxalq tərəfdaşlığa gətirib çıxarır. Azərbaycan neft kəməri ilə Qara dənizi və Xəzər dənizini, dünyada ilk dəfə olaraq neft kəməri ilə Aralıq dənizi ilə Xəzər dənizini birləşdirdi. Hazırda, biz Cənub Qaz Dəhlizi adlanan böyük layihə üzərində işləyirik. O, Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya, İtaliyanı birləşmiş kəmər sistemi vasitəsilə əlaqələndirir. Kəmərin uzunluğu 3500 kilometrdir və yekun mərhələdədir. Ötən ilin mayında biz Cənub Qaz Dəhlizinin rəsmi açılışını etdik. Ötən ilin iyununda isə onun mühüm hissələrindən biri olan TANAP-ın-Trans-Anadolu Boru Kəmərinin açılışı oldu. Azərbaycan qazı artıq bu kəmər vasitəsilə nəql olunur və ümidvaram ki, gələn il layihə tam yekunlaşacaq. Bu, regionda ən böyük infrastruktur layihələrindən biridir. Qaz istehsalı və nəqlinə yatırılmış investisiyaların ümumi həcmi 40 milyard dollara yaxındır. Beynəlxalq maliyyə institutları bizə güclü dəstək verir və əlbəttə ki, korporativ vəsaitdən də istifadə olunur. Bu, enerji təhlükəsizliyi, enerji əməkdaşlığı və ölkələr arasında əməkdaşlıq layihəsidir. Bizim planlarımız bugünkü formatın hüdudlarından kənara çıxır. Biz artıq Bosniya və Herseqovina, Xorvatiya, Monteneqro kimi Balkan ölkələri ilə Anlaşma Memorandumu imzalamışıq. Ümidvaram ki, növbəti mərhələdə biz bu ölkələrlə həm də fəal əməkdaşlığa başlayacağıq. Cənub Qaz Dəhlizi layihəsinə bu və ya digər yolla qoşulmağı planlaşdıran ölkələrin coğrafiyası genişlənir. Bu, enerji və nəqliyyat təşəbbüslərinin geniş beynəlxalq əməkdaşlığa yol açdığını əyani şəkildə göstərir. Düşünürəm ki, biz enerji və nəqliyyat sektorlarında Asiya, Qafqaz, Avropa ölkələrini və Avropa İttifaqına üzv ölkələri əhatə edən beynəlxalq əməkdaşlığın yeni geniş formatını yaratmışıq. Bu, həqiqətən də qiymətli töhfədir və biz hələ bu prosesin başlanğıcındayıq. Çünki biz hələ icra mərhələsindəyik. Bütün bu layihələr həyata keçiriləndən sonra iqtisadi stimul, iqtisadi fayda olacaq, bu ölkələrdə on minlərlə iş yeri açılacaq və bu, ölkələri yaxınlaşdıracaq.

Çıxışımın əvvəlində qeyd etdim ki, Azərbaycanın xarici siyasəti müstəqildir və milli maraqlara əsaslanır. Bunun əsasında təkcə bizim siyasi iradəmiz deyil, həm də iqtisadi inkişafımız dayanır. Son 15 ildə iqtisadiyyatımız 3,2 dəfə artıb. Biz Azərbaycanın əsas infrastruktur layihələrini tamamlamağa, maliyyə vəziyyətimizi əhəmiyyətli dərəcədə yaxşılaşdırmağa müvəffəq olduq. Xarici borcumuzun səviyyəsi çox aşağıdır, ümumi daxili məhsulun təxminən 19 faizinə bərabərdir və ehtiyatlarımız borcumuzdan 4-5 dəfə çoxdur. Beləliklə, Azərbaycanın maliyyə sabitliyi, iqtisadi inkişafı ölkəmiz üçün imkanlar yaratmaqla yanaşı, qonşu ölkələrə investisiya yatırmağa və daha çox körpü qurmağa imkan verir.

Düşünürəm ki, Forumun gündəliyi çox məharətlə seçilib. Siz bu gün narahatlığa səbəb olan ən mühüm və aktual məsələlərə toxunacaqsınız. Mən tam əminəm ki, məhsuldar müzakirələriniz və tövsiyələriniz tərəfdaşlığın güclənməsinə və gərginliklərin azalmasına yol açacaq. Foruma uğurlar arzulayıram. Təşəkkür edirəm.

***

Sonra Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qani, Albaniya Prezidenti İlir Meta, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Şefik Caferoviç, Moldova Prezidenti İqor Dodon, Monteneqro Prezidenti Milo Dukanoviç, Bolqarıstanın Baş naziri Boyko Borisov çıxış etdilər.

***

Daha sonra İtaliya Prezidenti Sercio Mattarellanın Forum iştirakçılarına məktubunu İtaliyanın ölkəmizdəki səfiri Auqusto Massari oxudu. Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Tereza Meyin müraciətini Birləşmiş Krallığın ölkəmizdəki səfiri Karol Krofts çatdırdı. BMT İnkişaf Proqramının rəhbərinin müavini, Avropa və MDB üzrə Regional Bürosunun direktoru Miryana Eqqer BMT-nin baş katibi Antonio Quterreşin Foruma müraciətini oxudu.

Forumda Latviyanın sabiq Prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri Vayra Vike-Freyberqa çıxış etdi.

Tədbirdə Nizami Gəncəvi Beynəlxalq Mükafatının 2019-cu ilin təqdimat mərasimi keçirildi.

Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qaniyə və Robert F.Kennedi İnsan Hüquqları Fondunun prezidenti Kerri Kennediyə Mərkəzin Qəyyumlar Şurasının qərarı ilə Nizami Gəncəvi Beynəlxalq mükafatları təqdim olundu.

Forum işini sessiyalarla davam etdirib.

Martın 14-də VII Qlobal Bakı Forumunun iştirakçılarının şərəfinə ziyafət verilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev ziyafətdə iştirak edib.

# Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Fransada səfərdə olub

(Əvvəli səhifə 1-də)

Jerar Larşe ölkələrimiz arasında əlaqələrin yüksək səviyyədə olduğunu bildirdi. Prezident İlham Əliyevin ötən ilin iyulunda Paris səfərini məmnunluqla xatırlayan Senatın sədri Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın da Fransa-Azərbaycan əlaqələrinin inkişafına böyük töhfə verdiyini, onun mədəniyyət, elm və təhsil sahələrində böyük xidmətlərinin olduğunu vurğuladı. Azərbaycanda qadınlara səsvermə hüququnun hələ Fransadan əvvəl verildiyini diqqətə çatdırdı. Fransanın Azərbaycan-Avropa İttifaqı əməkdaşlığının inkişafında maraqlı olduğunu deyən Senatın sədri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsindən danışarkən bildirdi ki, ölkəsi ATƏT-in Minsk Qrupunun həmsədri kimi münaqişənin sülh yolu ilə həllinə tərəfdardır.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Fransaya səfərinin uğurlu olduğunu və səfər çərçivəsində bir sıra səmərəli görüşlərin keçirildiyini bildirdi. Ölkələrimiz arasında ikitərəfli münasibətlərin yüksək səviyyəsini qeyd edən Azərbaycanın Birinci vitse-prezidenti əməkdaşlıq baxımından böyük potensialın olduğunu dedi. Azərbaycan-Fransa iqtisadi əməkdaşlığının daha da inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayan Birinci vitse-prezident fransız şirkətlərini ölkəmizdə daha fəal olmağa çağırdı. Mehriban Əliyeva Azərbaycanın iştirakı olmadan regionda heç bir layihənin reallaşmadığını və ölkəmizin Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynadığını diqqətə çatdırdı. Azərbaycanın Birinci vitse-prezidenti ölkəmizin Avropa İttifaqı ilə əlaqələrinin də yüksək səviyyədə olduğunu dedi və Tərəfdaşlıq Prioritetləri sənədinin imzalanmasının əhəmiyyətini vurğuladı.

Söhbət zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tezliklə, sülh və danışıqlar yolu ilə beynəlxalq hüququn normaları və ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllinin vacibliyini vurğulayan Mehriban Əliyeva bildirdi ki, münaqişənin mövcudluğu bütün regionun inkişafına və təhlükəsizliyinə ciddi təhdiddir.

Görüşdən sonra Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Fransa Senatının xatirə kitabını imzaladı.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın martın 12-də Yelisey sarayında Fransanın birinci xanımı Brijit Makron ilə görüşü olub.

Görüşdə Azərbaycan-Fransa əlaqələrinin inkişafından məmnunluq ifadə edildi. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Parisə səfərinin əlaqələrin inkişafına mühüm töhfə verəcəyi bildirildi. Söhbət zamanı ailə-qadın, gender bərabərliyi, təhsil, ətraf mühitin qorunması və digər məsələlərlə bağlı müzakirələr aparıldı, Bakıda Fransız Liseyinin fəaliyyətinin məmnunluq doğurduğu qeyd olundu, Şərqdə hüquq elminin ilk dəfə Azərbaycanda tədris edildiyi bildirildi. Mehriban Əliyevanın rəhbərliyi ilə müxtəlif dövrlərdə Fransada keçirilən mədəniyyət tədbirlərinin əhəmiyyəti vurğulandı.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Fransanın birinci xanımı Brijit Makronu ölkəmizə səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva martın 12-də Parisdə Fransa Respublikasının sabiq Prezidenti Nikola Sarkozi ilə görüşüb.

Görüşdə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Parisə səfərindən məmnunluq ifadə olundu. Bu səfərin Fransa-Azərbaycan əlaqələrinin inkişafına töhfə verdiyi bildirildi.

Söhbət zamanı ölkələrimiz arasında əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminlik ifadə olundu.

Martın 12-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Fransa Respublikası Milli Assambleyasının sədri Rişar Ferran ilə görüşü olub.

Fransa Milli Assambleyasının sədri Rişar Ferran Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanı qarşıladı.

Mehriban Əliyeva Milli Assambleyada Fransa-Azərbaycan dostluq qrupunun sədri və müşavirlər ilə görüşdü.

Sonra Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva ilə Fransa Milli Assambleyasının sədri Rişar Ferranın görüşü oldu. Görüşdə Azərbaycan-Fransa əlaqələrinin inkişafından məmnunluq ifadə edildi.

Rişar Ferran ölkələrimizin parlamentləri arasında əlaqələrin inkişafında maraqlı olduqlarını bildirdi. O, zəngin tarixə və mədəniyyətə malik ölkəmizin Fransada daha yaxşı tanıdılması üçün fransız deputatların Azərbaycana səfərlərinin əhəmiyyətini vurğuladı.

Birinci vitse-prezident Mehriban Əliyeva ikitərəfli münasibətlərin inkişafında parlamentlərarası əlaqələrin önəmindən danışdı, qarşılıqlı səfərlərin əhəmiyyətini qeyd etdi. Mehriban Əliyeva bu cür səfərlərin ölkəmizi daha yaxından tanımaq və Azərbaycan həqiqətlərini fransız ictimaiyyətinə çatdırmaq üçün yaxşı fürsət yaratdığını bildirdi. Mehriban Əliyeva milli dəyərlərə sadiq olan ölkəmizdə tarixlə müasirliyin gözəl sintezinin yaradıldığını diqqətə çatdırdı.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Fransa Milli Assambleyasının sədri Rişar Ferranı Bakıya səfərə dəvət etdi. Dəvət məmnunluqla qəbul olundu.

Martın 12-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Fransanın mədəniyyət naziri Frank Riyesterin müşayiəti ilə Parisin Orsey muzeyini ziyarət edib.

Fransanın mədəniyyət naziri Frank Riyester Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanı qarşıladı.

Parisin Orsey muzeyi ilə tanışlıq zamanı Azərbaycanın Birinci vitse-prezidentinə məlumat verildi ki, Fransa paytaxtının ən yaraşıqlı binalarından olan və əvvəllər Paris-Orlean marşrutu üzrə işləyən qatarların stansiyası kimi fəaliyyət göstərən bu bina artıq Orsey muzeyi adlanır. Bu gün Parisin, həmçinin Avropanın ən çox ziyarət edilən mədəniyyət ocaqları sırasında olan Orsey muzeyi Sena çayının sahilindədir və 1898-1900-cü illərdə inşa edilib. Paris arxitekturasının ən gözəl nümunələrindən olan Orsey muzeyi 1978-ci ildən tarix-memarlıq abidəsi kimi qorunur. Ümumiyyətlə, bu muzey şöhrətinə görə Parisdə ilk üçlükdə, dünya üzrə isə 10-luqda qərarlaşıb. Əsasən impressionist və postimpressionist kolleksiyalardan tərtib olunan muzeydə il ərzində müxtəlif tədbirlər - konsertlər, tamaşalar, dəyirmi masalar təşkil olunur. Muzeyi il ərzində 4 milyona yaxın insan ziyarət edir. Əsasən fransız və Avropa sənətkarlığına dair nadir incəsənət nümunələrinin toplandığı muzey 1848-1915-ci illərdə ərsəyə gələn heykəltəraşlıq, rəsm, mebel və fotolardan ibarət məşhur kolleksiyalara sahibdir. 1986-cı ildə açılışı olan Orsey muzeyində dünya şöhrətli rəssamlardan Monenin, Deqanın, Renuarın əsərlərinin kolleksiyası daha çox ziyarətçilərin diqqətini çəkir. Onların əsərlərində XIX əsr Avropa həyatının müxtəlif çalarları əks olunub. Bu əsərləri maraqlı edən ən mühüm məqam da elə budur. Avropa cəmiyyətlərinin inikası olan bu sənət nümunələrində o dövr üçün nadir sayılacaq rəssamlıq texnikalarına da rast gəlinir.

Qeyd edək ki, Azərbaycan ilə Fransa arasında mədəniyyət sahəsində əlaqələrin inkişafı daim diqqət mərkəzindədir və bu sahədə əməkdaşlıq ikitərəfli münasibətlərdə mühüm istiqamət təşkil edib. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva ölkələrimiz arasında mədəni əməkdaşlığın inkişafında hər zaman müstəsna rol oynayıb. Onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun bu istiqamətdə həyata keçirdiyi çoxşaxəli fəaliyyət proqramı nəticəsində dünya mədəni irsinin Fransadakı ən gözəl nümunələri bərpa olunub. Buna misal olaraq Parisdə Versal sarayının parkındakı ümumbəşəri abidələrin, Strasburqda XV əsrə aid katedralın beş vitrininin bərpasını, Luvr muzeyində İslam İncəsənəti Departamentinin yaradılmasını göstərmək olar. Bununla da bu abidələr məhz Azərbaycanın səyləri nəticəsində yenidən dünya mədəni xəzinəsinə daxil olub. Ona görə də ölkəmizin, xüsusilə də Heydər Əliyev Fondunun fəaliyyəti xaricdə, həmçinin Fransada hər zaman rəğbətlə qarşılanıb.

Martın 12-də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Fransanın iqtisadiyyat və maliyyə naziri Brüno Lömer ilə görüşü olub.

Nazir Brüno Lömer Birinci vitse-prezident Mehriban Əliyevanın Azərbaycan iqtisadiyyatının şaxələndirilməsində mühüm rolu olduğunu bildirdi. Birlikdə işləməyə hazır olduqlarını qeyd edən nazir Brüno Lömer dedi ki, Fransa yeni texnologiyalar sahəsində ölkəmizə töhfələr verə bilər. "Total"ın Azərbaycanda fəal rol oynadığını bildirən fransalı nazir nəqliyyat, kənd təsərrüfatı sahələrində də təcrübələrini bölüşə biləcəklərini qeyd etdi. O, iki ölkə arasında əməkdaşlığı möhkəmləndirməyi təklif etdi.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva ölkələrimiz arasında iqtisadi sahədə əməkdaşlığa böyük önəm verildiyini bildirdi və bunun üçün yaxşı zəmin olduğunu vurğuladı. Mehriban Əliyeva ölkələrimiz arasında siyasi dialoqun yüksək səviyyədə olduğunu, ancaq mövcud iqtisadi əməkdaşlığın real potensiala cavab vermədiyini vurğuladı. Bildirdi ki, tezliklə konkret layihələrin həyata keçirilməsinə başlanılmalıdır.

Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan-Fransa Hökumətlərarası İqtisadi Komissiyasının rolunun əhəmiyyətinə toxunaraq, cari ildə bu komissiyanın növbəti iclasının keçirilməsinin vacibliyini qeyd etdi. Mehriban Əliyeva Fransanın iqtisadiyyat və maliyyə naziri Brüno Lömerin ölkəmizə səfərinin ikitərəfli əməkdaşlığa böyük töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.

Fransalı nazir Hökumətlərarası İqtisadi Komissiyanın cari ildə iclasının keçirilməsi təklifini yüksək qiymətləndirərək, may ayında Avropada seçkilərdən sonra ölkəmizə səfərə gəlməyə imkanı olacağını dedi. Bildirdi ki, Fransa ilə əlaqələr həm də ölkəmizin Avropa İttifaqı ilə yaxınlaşmasına böyük töhfə verə və Azərbaycanın Avropa İttifaqına inteqrasiyası üçün pəncərə rolunu oynaya bilər.

# Novruz şənliklərində yanğın təhlükəsizliyi qaydalarına əməl edilməlidir

***Yurdumuza bahar gəlir - həmişə sevinclə, səbirsizliklə gözlədiyimiz bahar. Xalqımız həmişə olduğu kimi milli adət ənənələrimizə uyğun olaraq baharın gəlişini - Novruz bayramını hər yerdə xoş ovqatla, çal-çağırla qarşılayır. Çünki Novruz bayramı öz adət-ənənələri ilə xalqımızın tarixi köklərini və milli dəyərlərini özündə yaşadan ümumxalq bayramıdır. Bu bayram gur tonqalları, gözoxşayan noğullu-nabatlı, dadlı şirniyyatlı və yanar şamlı xonçaları, yamyaşıl səmənisi, mübarək niyyətləri, diləkləri ilə sevilir və iqtisadiyyatı gündən-günə qüdrətlənən müstəqil Azərbaycan Respublikasının bütün şəhər və kəndlərində əhali Novruz bayramını hər yerdə xoş ovqatla, çal-çağırla qarşılayır, bir-birindən rəngarəng bayram tədbirləri keçirirlər.***

Milli bayramımız Novruzun gəlişi ərəfəsində hər birimizin arzusudur ki, şənliklər ən ülvi duyğularla yaddaşlara həkk olunsun, bayramlar yalnız və yalnız xoş hisslərlə xatırlansın. Ötən illərin yanğın statistikasının təhlili göstərir ki, bayram şənliklərinin və tədbirlərinin keçirilməsi zamanı insanların adi ehtiyatsızlığı səbəbindən yanğınlar baş verir, nəticədə vətəndaşlarımıza maddi və mənəvi ziyan dəyir. Bunun üçün isə bir sıra təhlükəsizlik qaydalarına, o cümlədən yanğın təhlükəsizliyi ilə bağlı bütün tələblərə ciddi əməl olunmalıdır.

Birinci növbədə qeyd edilməlidir ki, Novruz bayramında əhali tərəfindən pərakəndə halda tonqallar yandırılarkən yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl olunmalı, tonqallar ətrafda olan yanar materiallardan, mühəndis-texniki qurğulardan, qaz xətlərindən, evlərdən, binalardan, tezalışan maye və materialların saxlandığı yerlərdən kənarda yandırılmalıdır.

Bayram şənlikləri zamanı tonqallar tam söndürülənədək nəzarətdə saxlanılmalıdır. Unutmaq olmaz ki, zəif bir küləyin əsməsi nəticəsində tam sönməmiş tonqalın közü yanğın üçün mənbə ola bilər.

Novruz şənliklərində yanar mayelərin hopdurulması ilə hazırlanan məşəllərin azyaşlı uşaqlar tərəfindən havaya atılması nəticisində də ciddi yanğınlar baş verə bilər. Belə ki, məşəllər evlərin dam örtüklərində və ya həyətyanı sahələrdə yığılmış yanar materialları, çəpərləri, ot tayalarını alışdıra bilər.

Yüksəkliklərdə, dağ və dağətəyi yerlərdə, eləcə də digər yaşayış sahələrində avtomobil şinlərinin yandırılması qəti qadağandır. Belə hallarda yanan şinlər diyirlənərək ətrafdakı yaşayış sahələrində yeni yanğın ocaqlarının yaranmasına səbəb ola bilər.

Uşaqlar adət-ənənələrimizə uyğun olaraq tonqalların üzərindən atılarkən özlərini yanğından qorumalıdırlar. Bayram tədbirlərində, xüsusən də tonqal ətrafında əylənən və şənliklərində azyaşlı uşaqlar mütləq valideynlərin nəzarəti altında olmalıdır.

Bayram şənlikləri zamanı şam yandırılarkən yanğın təhlükəsizliyi qaydalarına diqqət yetirmək lazımdır. Unutmaq olmaz ki, yanar şamı öz ərintisi ilə stol, kibrit qutusu üzərinə və digər yerlərə yapışdırmaq olmaz.

Bayram şənlikləri zamanı müəssisə və təşkilatlar, təhsil ocaqları, xüsusən də uşaq evləri və internat məktəblərində yanğın təhlükəsizliyi qaydalarına nəzarəti daha da gücləndirməlidirlər. Milli bayramımızı- Novruzu acı sonluqla başa vurmamaq üçün yuxarıda sadalanan, həmçinin yanğın təhlükəsizliyi ilə bağlı digər qaydalara əməl etmək vacibdir.

***Rövşən Bəkirov,***
***FHN DYNX-nin Yanğına qarşı təbliğat şöbəsinin böyük təlimatçısı***

# Novruz bayramı münasibətilə silsilə tədbirlər keçirilir







***Novruz bayramı münasibətilə FHN-in Mülki müdafiə qoşunlarında şəxsi heyətin asudə vaxtının maraqlı təşkili məqsədi ilə yerli icra hakimiyyəti orqanları, gənclər və idman idarələri, habelə mədəniyyət işçilərinin birgə iştirakı ilə rəngarəng tədbirlərə start verilib.***

Bayram ərəfəsində və bayram günlərində şəxsi heyətin istirahətinin maraqlı təşkili məqsədilə bütün hərbi hissələrdə tanınmış incəsənət ustalarının iştirakı ilə bir-birindən maraqlı konsert proqramları təşkil edilib keçirilir. Novruz tədbirlərində çıxış edən müğənnilər, Mülki müdafiə qoşunları komandanlığının orkestrinin solistləri rəngarəng çıxışları ilə bayram ovqatına xüsusi rəng qatırlar. Novruz çərşənbələrində bütün hərbi hissələrdə ənənəvi olaraq bayram tonqalları yandırılır, tonqal ətrafına yığılan şəxsi heyət incəsənət ustalarının müşayiəti ilə yallı gedir, rəqs edir və şənlənir.

Həqiqi hərbi xidmətdə olan qulluqçular xidmət etdikləri şəhər və bölgələr üzrə gəzintilərdə olur, habelə tarixi abidələrə, muzeylərə, qoruq və parklara ekskursiyalar təşkil edilir.

Bayram günlərində hərbi qulluqçuların ailə üzvlərinin maraqlı istirahətini təşkil etmək məqsədi ilə Akademik Milli Dram Teatrında, Musiqili Komediya Teatrında və Gənc Tamaşaçılar Teatrında iştirakları nəzərdə tutulmuşdur. Eyni zamanda yerli özfəaliyyət kollektivlərinin iştirakı ilə konsert proqramları, kosa və keçəl, səməni şənlikləri, habelə çavuş və əsgərlərin valideynləri ilə bayram görüşləri təşkil olunacaqdır.

***FHN-in Mülki müdafiə qoşunlarının Şəxsi heyətlə iş üzrə şöbəsi***

# “Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanının icrasına həsr olunan müşavirə keçirilib

***Martın 14-də Fövqəladə Hallar Nazirliyinin Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin inzibati binasında “Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 19 fevral 2019-cu il tarixli Fərmanının icrası ilə bağlı məsələlərin müzakirəsi”nə həsr olunan müşavirə keçirilib.***





Müşavirədə fövqəladə hallar naziri Kəmaləddin Heydərov, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Samir Nuriyev, Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənov, Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov, “Azərenerji” ASC-nin prezidenti Balababa Rzayev, “Azərsu” ASC-nin sədri Qorxmaz Hüseynov, SOCAR “Azəriqaz” İB-nin baş direktoru Əkbər Hacıyev, Azərbaycan Respublikası Prezidentinin İqtisadi məsələlər üzrə köməkçisinin xidmətinin baş məsləhətçisi Feyruz Mustafayev, Nazirlər Kabineti Kommunikasiya, tikinti və kommunal təsərrüfat məsələləri şöbəsinin müdiri Qasım Abdullayev iştirak ediblər.

Tədbirdə çıxış edən fövqəladə hallar naziri Kəmaləddin Heydərov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı “Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında” Fərman vətəndaşların mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində dövlətimizin başçısının atdığı növbəti mütərəqqi addım olaraq, bəzi çoxmənzilli binaların istismara verilməsinin sürətləndirilməsinə imkan yaradacaq. Nazir artıq bu istiqamətdə aidiyyəti dövlət qurumlarının birgə fəaliyyətini tənzimləyən işçi qrupun yaradıldığını və Fərmandan irəli gələn məsələlərin operativ icrasına başlanıldığını qeyd edib. O, bildirib ki, Prezident İlham Əliyevin bu mühüm Fərmanının icrası nəticəsində illərlə qaz, işıq, su, poçt xidməti kimi problemlərlə üzləşmiş vətəndaşlar bu çətinliklərdən xilas olacaqlar. Bu baxımdan da bugünkü müşavirə adıçəkilən Fərmanın icrası ilə bağlı aidiyyəti dövlət qurumlarının qarşılıqlı səmərəli fəaliyyətinin daha da gücləndirilməsinə və keyfiyyətinin artırılmasına xidmət edəcək.



Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Samir Nuriyev mühüm əhəmiyyət kəsb edən bu Fərmanın icrası zamanı on minlərlə sakinin probleminin öz həllini tapacağını deyib. O, bildirib ki, işçi qrup artıq yoxlanılmış binaların istismara verilməsini daha da sürətləndirmək istiqamətində işlər aparır.

Azərbaycan Respublikası Prezidentinin İqtisadi məsələlər üzrə köməkçisinin xidmətinin baş məsləhətçisi Feyruz Mustafayev Fərmandan irəli gələn məsələlərin əhəmiyyətindən danışaraq bu istiqamətdə aidiyyəti dövlət qurumlarının əlaqəli işinin vacibliyini vurğulayıb.

Əmlak Məsələləri Dövlət Komitəsinin sədri Kərəm Həsənov Fərmanın əhalinin mənzil şəraitinin yaxşılaşdırılması istiqamətində mühüm rol oynadığını diqqətə çatdıraraq bildirib ki, rəhbərlik etdiyi qurum işçi qrup çərçivəsində çoxmənzilli binaların istismara verilməsinin sadələşdirilməsi üçün lazımi işlərin görülməsində yaxından iştirak edir.

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov aidiyyəti dövlət qurumlarının birgə fəaliyyəti nəticəsində mühüm işlər görüldüyünü və Fərmanın icrası istiqamətində Bakı Şəhər İcra Hakimiyyətinin də aidiyyəti dövlət orqanları ilə yaxından əməkdaşlıq etdiyini diqqətə çatdırıb.

“Azərenerji” ASC-nin prezidenti Balababa Rzayev, “Azərsu” ASC-nin sədri Qorxmaz Hüseynov, SOCAR “Azəriqaz” İB-nin baş direktoru Əkbər Hacıyev adıçəkilən Fərmana uyğun olaraq, bəzi çoxmənzilli binaların elektrik enerjisi, su və qaz ilə lazımi səviyyədə təminatı üçün müvafiq tədbirlərin həyata keçrildiyini bildiriblər.

Sonra mövzu ilə bağlı həlli vacib olan məsələlərin geniş müzakirəsi aparılıb, Fərmanın icrasının vaxtında və keyfiyyətlə həyata keçirilməsi üçün aidiyyəti üzrə tapşırıqlar verilib.

# “Novruz bayramı ilə əlaqədar yanğın təhlükəsizliyi qaydaları” mövzusunda birbaşa sual-cavab təşkil olunub

***Martın 12-də saat 11.00-da Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin “Facebook” sosial şəbəkə səhifəsində (https://www.facebook.com/officialfhn) “Novruz bayramı ilə əlaqədar yanğın təhlükəsizliyi qaydaları” mövzusunda birbaşa sual-cavab təşkil olunub.***

“Facebook” üzərindən canlı yayımın təşkilində məqsəd Novruz bayramı ilə bağlı yanğın təhlükəsizliyi qaydalarının əhaliyə aşılanmasıdır.

Canlı yayımda mövzuya dair məlumatlar verilib və suallar ətraflı cavablandırılıb. Qeyd edək ki, diskussiya zamanı “Facebook istifadəçiləri tərəfindən verilən suallar, əsasən, Novruzda tonqalların qalanması, bayram ilə bağlı müxtəlif mərasimlər və s. zamanı diqqət yetirilməsi vacib olan təhlükəsizlik tədbirləri ilə əlaqədar olub.

Fövqəladə Hallar Nazirliyi tərəfindən sosial şəbəkələr vasitəsilə belə yayımlar davamlı şəkildə təşkil ediləcək.

# İntellektual bilik yarışması “Azərbaycan Respublikasının mübarizə tarixi” mövzusuna həsr olunub

***Fövqəladə Hallar Nazirliyinin Akademiyasının kursantları arasında “Azərbaycan Respublikasının mübarizə tarixi” mövzusunda intellektual bilik yarışı keçirilib.***






Bilik yarışması kursantların intellektual səviyyəsinin yüksəldilməsi, dünyagörüşünün artırılması və zehni inkişafı, başlıcası, onlarda vətənpərvərlik hissinin gücləndirilməsi məqsədilə təşkil edilib.

Akademiyanın Tələbə Elmi Cəmiyyətinin və şəxsi heyətlə iş bölməsinin təşkilatçılığı ilə reallaşan yarışda 8 komanda olmaqla 48 nəfər kursant iştirak edib. Yarış üç mövzu üzrə keçirilib: Azərbaycanın milli ordu quruculuğu, qan yaddaşımız və milli qəhrəmanlarımız.

Hər mövzu üzrə 10 sual olmaqla, ümumilikdə 30 sual səsləndirilib. Maraqlı və gərgin mübarizə şəraitində keçən yarışın final mərhələsində uğurla çıxış edən “Xilaskar” komandası qalib adına layiq görülüb, 2-ci yerə “5+1” komandası, 3-cü yerə isə “Vətən” komandası nail olub.

Qalib komandalar fəxri fərmanlarla təltif edilib və müxtəlif hədiyyələrlə mükafatlandırılıblar.

# Mülki müdafiə kursları keçirilib

***FHN-nin Cənub Regional Mərkəzi tərəfindən “Kəşfiyyat manqalarının komandirləri” kateqoriyası üzrə mülki müdafiə kursları keçirilib.***

Kurslar əhalinin baş verə biləcək fövqəladə hadisələrdən mühafizə üsulları və davranış qaydaları, idarəetmə orqanlarının fəaliyyəti və əhalinin mühafizəsi sahəsində rolu, zərərçəkmişlərə ilk tibbi yardımın göstərilməsi, fərdi və kollektiv mühafizə vasitələrindən istifadə qaydaları, həmçinin mülki müdafiə qüvvə və vasitələrinin idarə olunması üzrə bacarıqlarının təkmilləşdirilməsi, habelə təsdiq olunmuş proqram əsasında mülki müdafiə və fövqəladə hadisələrdən mühafizə sahəsində vəzifələrin yerinə yetirilməsi mövzularını əhatə edib.

Kursların sonunda dinləyicilərdən keçirilmiş proqram üzrə məqbullar qəbul olunaraq, onlara mülki müdafiə kurslarını bitirmələri barədə müvafiq şəhadətnamələr təqdim olunub.

# Fövqəladə Hallar Nazirliyinin Akademiyası kursant qəbulu elan edir

***Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyası 2019/2020-ci tədris ili üçün təhsilin bakalavriat səviyyəsinə kursant (tələbə) qəbulu elan edir.***

Akademiyada “Fövqəladə hallar və həyat fəaliyyətinin təhlükəsizliyi mühəndisliyi” və “Yanğın təhlükəsizliyi mühəndisliyi” ixtisasları üzrə kadr hazırlığı həyata keçirilir.

Təhsil müddəti 4 ildir. Təhsil dövlət sifarişi əsasında ödənişsiz əsaslarla əyani şöbədə həyata keçirilir. Tədris Azərbaycan dilində aparılır.

Akademiyada müasir avadanlıqlarla təchiz edilmiş təlim qurğuları, ixtisaslaşdırılmış auditoriyalar, laboratoriyalar, xüsusi fənn kabinələri kursantların istifadəsindədir.

Akademiyaya qəbul olan şəxslər təhsil müddətində yemək, xüsusi geyim forması və yataqxana ilə təmin olunur, təqaüd alırlar.

Akademiyanın məzunlarına seçdikləri ixtisasa uyğun “bakalavr” ali-peşə ixtisas dərəcəsi verilir. Onlar “Hərbi xidmətkeçmə haqqında” Əsasnamə və “Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında Azərbaycan Respublikasının Qanunu”-na uyğun qaydada rütbələr verilməklə Fövqəladə Hallar Nazirliyi sistemində vəzifələrə təyinat alırlar.

Akademiyaya qəbula namizədlər boyu 170 sm-dən az olmayan, tam orta təhsilli və ya tam orta məktəbin buraxılış sinfində oxuyan, 15.09.2019-cu ilədək 17 yaşı tamam olan, yaxud müddətli həqiqi hərbi xidmətini başa vuraraq ehtiyata buraxılmış və 15.09.2019-cu ilədək 23 yaşı tamam olmayan Azərbaycan Respublikasının vətəndaşları sırasından seçilir.

Namizədlər Fövqəladə Hallar Nazirliyinin Tibb Xidmətinin Xüsusi həkim ekspertiza komissiyası tərəfindən şəhadətləndirilir, fiziki hazırlıq səviyyəsinin xidmət üçün müəyyən edilmiş minimumlara uyğunluğu yoxlanılır və FHN-nin Seçmə komissiyasında fərdi söhbət aparılmaqla sınaqdan keçirilirlər.

Sınaq və müvafiq yoxlamalardan müvəffəqiyyətlə keçmiş abituriyentlərin siyahısı Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Akademiyasına namizəd olaraq qeydə alınması üçün Dövlət İmtahan Mərkəzinə göndərilir.

Qəbul imtahanı test üsulu ilə birinci mərhələdə buraxılış imtahanları fənləri üzrə, ikinci mərhələdə isə I ixtisas qrupunun fənləri üzrə keçirilir.

Sənədlər sənəd qəbulu komissiyası tərəfindən aprel ayının 1-dən 30-dək (istirahət və bayram günləri istisna olmaqla) saat 10:00-dan 17:00-dək Fövqəladə Hallar Nazirliyinin Akademiyasında (ünvan: Bakı şəhəri, Suraxanı rayonu, Hövsan qəsəbəsi, Elman Qasımov küçəsi-8) qəbul edilir. Daha ətraflı məlumatı Fövqəladə Hallar Nazirliyinin və Dövlət İmtahan Mərkəzinin rəsmi internet saytlarından ala bilərsiniz.

**Fövqəladə Hallar Nazirliyinin sənəd qəbulu komissiyasının əlaqə telefonları:**
**(012) 512-41-61; (012) 512-41-20.**

# “Səhiyyə müəssisələrinin yanğın təhlükəsizliyi” mövzusunda maarifləndirmə tədbiri təşkil edilib

***FHN-in Dövlət Yanğın Nəzarəti Xidmətinin 1-ci ərazi DYNİ-nin təşkilatçılığı və Bakı Regional Mərkəzinin iştirakı ilə Binəqədi rayonunda yerləşən Xocahəsən Sağlamlıq Mərkəzində səhiyyə obyektlərinin yanğın təhlükəsizliyinin daha etibarlı təmin olunması məsələsinə həsr olunmuş maarifləndirmə tədbiri təşkil olunub.***

Sağlamlıq Mərkəzinin rəhbərliyinin və kollektivinin iştirak etdiyi tədbirdə yanğın təhlükəsizliyi sahəsində görülən müvafiq işlər barədə ətraflı məlumat verilib.

Qarşılıqlı əməkdaşlıq şəraitində yanğından mühafizənin təmin edilməsi, fövqəladə hadisələrin qarşısının alınması məqsədilə lazımi qabaqlayıcı tədbirlərin görülməsinin daim nəzarətdə saxlanmasından, könüllü yanğınsöndürmə dəstələrinin fəaliyyətinin vacibliyindən, elektrik və qaz təsərrüfatından istifadə zamanı qüvvədə olan normativ sənədlərin tələblərinə riayət olunmasından, yanğınların söndürülməsində mühüm rol oynayan su mənbələrinin vəziyyətindən, işçi heyətin fövqəladə hallar zamanı davranış qaydalarından, həyata keçirilməsi zəruri olan təhlükəsizlik tədbirlərindən geniş söhbət açılıb.



Tədbir iştirakçılarına “Vətəndaşların nəzərinə”, “Yanğın zamanı davranış qaydaları”, “Qaz cihazlarından istifadə edərkən yanğın, partlayış, zəhərlənmə kimi fövqəladə hadisələrin baş verməməsi üçün təhlükəsizlik qaydalarına əməl edin!” mövzusunda yaddaş vərəqələri və “Səhiyyə müəssisələrinin yanğın təhlükəsizliyi”, “İnzibati binaların yanğın təhlükəsizliyi” adlı yaddaş kitabçaları paylanılıb.

Sonda suallar cavablandırılıb və yanğınsöndürmə vasitələrindən istifadə qaydaları əyani surətdə nümayiş etdirilib.

FHN Fövqəladə Hallar Nazirliyinin qəzeti Newspaper of MES | Газета МЧС
№ 10 (608)

# Maarifləndirmə tədbirləri davam etdirilir

***Fövqəladə Hallar Nazirliyinin Şimal-qərb Regional Mərkəzi Şəki şəhər 11 nömrəli tam orta məktəbində müəllim və şagirdlərin iştirakı ilə "Fövqəladə hallarla bağlı davranış qaydaları" mövzusunda maarifləndirmə tədbiri keçirib.***

Tədbir iştirakçılarına "Fövqəladə hallar barədə ümumi məlumat", "Zəlzələ", "Sel və daşqın", "Dəm qazı", "Məişətdə yanğın zamanı davranış qaydaları", "İlkin yanğınsöndürmə vasitələrindən istifadə qaydaları" və "112" qaynar telefon xətti" haqqında geniş məlumatlar verilib.

Sonda mövzulara dair suallar cavablandırılıb.

***

***Fövqəladə Hallar Nazirliyinin Qarabağ Regional Mərkəzi Ağdam rayon Quzanlı qəsəbə tam orta məktəbində "Fövqəladə hallar: təbii və texnogen qəzalar zamanı ilkin tədbirlər" mövzusunda maarifləndirmə tədbiri keçirib.***

Mərkəzin əməkdaşları tərəfindən fövqəladə hal anlayışı, təbii fəlakətlər, sel, daşqın, zəlzələ, yanğın təhlükəsizliyi, meşə yanğınları, su hövzələrində insanların təhlükəsizliyi, dəm qazından zəhərlənmənin profilaktikası, "112" qaynar xətti" və sair mövzularda geniş məlumat verilib. O cümlədən, daşqın, zəlzələ, dəm qazından zəhərlənmə baş verdikdə nə etmək lazım olduğu ətraflı izah edilib.

Tədbirdə FHN-in yerli qurumlarının əməkdaşları və rayon Təhsil şöbəsinin nümayəndələri, məktəbin müəllim və şagirdləri iştirak edib.

***

***Fövqəladə Hallar Nazirliyinin Muğan Regional Mərkəzi Sabirabad rayonu Xəlfəli kənd tam orta məktəbində "Fövqəladə hallarla bağlı davranış qaydaları" mövzusunda maarifləndirmə tədbiri keçirib.***

Mərkəzin əməkdaşları tərəfindən fövqəladə hal anlayışı, təbii fəlakətlər, sel, daşqın, zəlzələ, yanğın təhlükəsizliyi, meşə yanğınları, su hövzələrində insanların təhlükəsizliyi, dəm qazından zəhərlənmənin profilaktikası, "112" qaynar xətti və sair mövzularda geniş məlumat verilib, davranış qaydaları izah edilib, videoçarxlar nümayiş olunub.

***

***Fövqəladə Hallar Nazirliyinin Sumqayıt Regional Mərkəzi Xızı rayonu C.Novruz adına Sitalçay 1 №-li tam orta məktəbində "Fövqəladə hallarla bağlı davranış və yanğın təhlükəsizliyi qaydaları" mövzusunda maarifləndirmə tədbiri keçirib.***

Toplantıda Sumqayıt Regional Mərkəzinin, Sumqayıt Regional Dövlət Yanğın Nəzarəti İdarəsinin, Xızı rayon Dövlət Yanğından Mühafizə Hissəsinin əməkdaşları, məktəbin müəllim və şagirdləri iştirak ediblər.

Tədbirdə "Fövqəladə halların təsnifatı", "Zəlzələ zamanı necə davranmalı?", "Torpaq sürüşməsi zamanı davranış qaydaları", "Məişətdə yanğın zamanı davranış qaydaları", "Odsöndürən balonlardan istifadə", "Meşədə yanğın təhlükəsizliyi qaydaları", "Dəm qazı" və "112" qaynar xətti" mövzularında çıxışlar edilib, mövzulara aid videoçarxlar nümayiş olunub.

# Kiçikhəcmli gəmi istifadəçiləri təhlükəsizlik qaydaları barəsində məlumatlandırılıb

***Fövqəladə Hallar Nazirliyinin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidməti Bakı Regional Mərkəzinin əməkdaşları ilə birgə Qaradağ rayonunun Ələt qəsəbəsində maarifləndirmə tədbiri keçirib.***



"Kiçikhəcmli gəmilərin təhlükəsiz istismarı" mövzusunda təşkil edilən təbdirdə kiçikhəcmli gəmi istifadəçiləri iştirak edib. İstifadəçilərə bu tip gəmilərin təchizat avadanlıqları və istismar qaydaları barədə məlumat verilib. Həmçinin, kiçikhəcmli gəmilərin qanunvericiliklə nəzərdə tutulmuş qaydada dövlət qeydiyyatına alınmasının və texniki baxışdan keçirilməsinin, habelə gəmi sürücüləri tərəfindən sürücülük vəsiqələrinin alınmasının vacibliyi diqqətə çatdırılıb. Eyni zamanda kiçikhəcmli gəmi sürücülərinə kollektiv və fərdi xilasedici vasitələrdən istifadə qaydaları izah olunub.

Sonda gəmi istifadəçilərinə kiçikhəcmli gəmilərin təchizat avadanlıqları və təhlükəsiz istismar qaydaları haqqında maarifləndirici broşürlər paylanılıb.

# Beynəlxalq axtarış-xilasetmə əməliyyatlarının əlaqələndirilməsi üzrə metodiki toplantı keçirilib

***Fövqəladə Hallar Nazirliyi Mülki müdafiə qoşunlarının N saylı hərbi hissəsində Beynəlxalq axtarış-xilasetmə dəstəsinin şəxsi heyəti ilə "Qarşılanma və yolasalma məntəqəsi (RDC) və Əlaqələndirmə mərkəzinin (OSOCC, UCC) fəaliyyətlərinin təşkili" mövzusunda növbəti metodiki toplantı keçirilib.***






Toplantı şərti olaraq zərərçəkmiş ölkə tərəfindən Birləşmiş Millətlər Təşkilatının Humanitar Əməliyyatların Koordinasiyası Ofisinin Virtual Sahə Əməliyyatlarının Koordinasiya Mərkəzindən (VİRTUAL OSOCC) istifadə qaydaları, Fövqəladə Halların İdarəedilməsi üzrə Yerli Orqanın (LEMA), Qarşılama və yolasalma məntəqəsinin (RDC), Yerli Əməliyyatların Koordinasiya Mərkəzinin (OSOCC) fəaliyyətinin təşkili və iş prinsipləri ilə bağlı məsələləri əhatə edib.

Tədbirdə əsas səylər Nazirliyin Beynəlxalq axtarış-xilasetmə dəstəsinin şəxsi heyətinin bu sahədə vərdişlərin inkişaf etdirilməsinə yönəldilib.

Sonda mövzuya dair münasibətlər bildirilib, görülmüş işlər müzakirə olunub və axtarış-xilasetmə dəstələrinin fəaliyyətinin inkişaf etdirilməsi üçün zəruri məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

# Təlim-məşqdə xidməti heyətin hərəkətləri yoxlanılıb

***FHN-in Dövlət Yanğından Mühafizə Xidmətinin ARDNŞ üzrə Yanğından Mühafizə İdarəsi "Neft Daşları" Neft və Qazçıxarma İdarəsinin Qaz Kompressor Stansiyasının 3 və 4 saylı kompressor stansiyalarında "Baş verə biləcək qəzaların və yanğınların planı üzrə xidməti heyətin hərəkətlərinin yoxlanılması" mövzusunda təlim-məşq keçirib.***





Təlimdə Neft və Qazçıxarma İdarəsində fövqəladə hallar üzrə idarəetmə qrupunun iştirakı ilə şərti yanğın zamanı qəzaların ləğvi, yanğın zamanı ilkin hərəkətlər məşq etdirilib. Yanğın zamanı müvafiq qurumlara məlumatın verilməsi, yanğının və qəzanın aradan qaldırılması üzrə tədbirlər, ARDNŞ üzrə YMİ-nin 55 saylı YMH-nin çağırılması, işçilərin təhlükəsiz yerə yığılması və təxliyəyə hazırlanması işləri, xəsarət alanlara tibbi yardımın təşkili işləri yerinə yetirilib.

Sonda təlimin yekunları geniş müzakirə edilib, yanğın təhlükəsizliyi ilə bağlı qarşıda duran vəzifələrin daha mütəşəkkil şəkildə icra olunması üçün müvafiq tövsiyələr verilib. Mühəndis-texniki işçilər, fəhlə və qulluqçular ərazinin saxlanma xüsusiyyətləri, o cümlədən yollar, yanğın təhlükəsizliyi tələblərinə uyğun aralıq məsafələr, binalara, su mənbələrinə və digər obyektlərə keçid yollarla bağlı tələblər, maddə və materialların saxlanılması, nəqliyyat vasitələrinin müəssisə ərazisinə buraxılması, yanğınsöndürmə və yanğın rabitə siqnalizasiya vasitələrinin saxlanılması qaydaları haqqında ətraflı məlumatlandırılıb.

# Gəncə Regional Mərkəzində seminar-müşavirə keçirilib

***Fövqəladə Hallar Nazirliyinin Baş əməliyyat idarəsi Gəncə Regional Mərkəzində "Fövqəladə halların nəticələrinin aradan qaldırılması sahəsində Fövqəladə Hallar Nazirliyinin yerli qurumları ilə Gəncə şəhər İcra Hakimiyyəti, özünüidarəetmə orqanları, eləcə də xidmət sahələri arasında qarşılıqlı fəaliyyət, qarşıda duran vəzifələr və problemlər" mövzusunda seminar-müşavirə keçirib.***



Seminar-müşavirədə nazirliyin Baş əməliyyat idarəsinin, Gəncə şəhərindəki yerli qurumlarının nümayəndələri, icra hakimiyyətinin, yerli icra strukturlarının və bələdiyyələrin, həmçinin, müvafiq idarə və müəssisə rəhbərləri iştirak edib.

Tədbirin məqsədi əhalinin həyat təhlükəsizliyinin təmin edilməsi, ərazilərin fövqəladə hallardan etibarlı qorunması sahəsində əlaqədar təşkilatların işinin səmərəli təşkili, fövqəladə hallarda xəbərdarlıq, nəticələrinin aradan qaldırılması sahəsində şəhər fövqəladə hallar komissiyaları, yerli icra strukturları və bələdiyyələrlə birgə fəaliyyətin gücləndirilməsi və koordinasiyanın təkmilləşdirilməsindən ibarət olub.

Görüşdə fövqəladə hallar ilə bağlı hazırlığın artırılması məqsədilə tövsiyələr verilib, aparılmış monitorinqlərin nəticələri, mövcud problemlər dinlənilib, onların həlli yolları və qarşıda duran vəzifələr ətrafında geniş müzakirələr aparılıb.

# Neft, qaz və neft-kimya sənayesi müəssisələrində yanğın təhlükəsizliyi tələbləri

***Neft, qaz və neft-kimya sənayesi müəssisələrində yanğın təhlükəsizliyinin təmin olunması üçün hər bir müəssisənin istehsalat kanalizasiya şəbəkəsi qapalı formada quraşdırılmalıdır. Kanalizasiya şəbəkəsi yanmayan materiallardan hazırlanmalı, boru və qurğuların kimyəvi-aqresiv çirkab suların təsiri nəticəsində korroziyadan muhafizəsi nəzərdə tutulmalıdır. Kanalizasiyaların baxış quyuları daim qapaqla bağlı vəziyyətdə saxlanılmalı və 10 sm qalınlığı olan qum təbəqəsi ilə örtülməlidir.***

Kanalizasiya şəbəkələrində baş verə biləcək yanğınların xətt boyu qarşısını almaq üçün hidravlik qapayıcılar quraşdırılmalıdır.

Tərkibində neft və neft məhsulları olan çirkab sular kanalizasiya şəbəkəsinə verilməzdən əvvəl təmizlənməlidir. Çirkab sularının neftdən normal təmizlənməsini təmin etməyən sənaye kanalizasiya şəbəkəsinin və neft tutucularının istismarına yol verilməməlidir. İstismarda olan neft tutucuları fasiləsiz işləməli və müntəzəm olaraq onlar texniki baxışdan keçirilməlidir. Neft tutucuları yanmayan materiallardan hazırlanmalıdır. Açıq neft qum tutucularının ətrafında yanmayan materialdan hazırlanmış, hündürlüyü 1 m-dən az olmayan çəpərlər quraşdırılmalıdır.

İstehsalat obyektlərinin ərazisində qaz kəmərlərindən 15 m-ə qədər məsafədə və ondan hər iki tərəfdə yerləşən kanalizasiya qurğuları və yeraltı tikililərin havasının qazlılıq səviyyəsi ildə 3 dəfədən az olmayaraq, qaz kəmərinin istismara verildiyi birinci il isə ayda 1 dəfədən az olmayaraq yoxlanılmalıdır.

Qazlılığın səviyyəsi normadan yüksək olduqda və yaxud qaz sızması aşkar olunduqda, qaz kəmərləri dərhal bağlanmalı, yoxlanılmalı və sızmanın ləğv edilməsi üçün lazımi tədbirlər görülməlidir.

*FHN Dövlət Yanğından Mühafizə Xidmətinin İctimaiyyətlə əlaqələr və təbliğat sektoru*

## Fövqəladə Hallar Nazirliyi xəbərdarlıq edir: Dəm qazı təhlükəsi

Dəm qazı təhlükəsi ilə bağlı görülən maarifləndirmə işləri bəhrəsini versə də, yenə də təhlükəsizlik qaydalarına biganə yanaşanlar var.

**Təhlükəsizliyimiz üçün bir daha xatırladaq:**

**Dəm qazının yaranmasının əsas səbəbləri nasaz və standartlara uyğun olmayan qaz cihazları, işlək vəziyyətdə olmayan ventilyasiya sistemi və tüstü bacalarıdır.**

**Odur ki:**

- mənzildə istifadə etdiyimiz qaz cihazları dövlət standartları və təhlükəsizlik tələblərinə cavab verməli, mütləq uyğunluq sertifikatı olmalıdır;
- qaz cihazı istifadə olunan otağın, mətbəxin və ya hamamın hündürlüyü 2 metr 20 santimetrdən az olmamalıdır;
- qaz cihazından istifadə etdiyimiz qapalı yerdə mütləq şəkildə havaçəkən sistem işləməli, nəfəslik açıq olmalıdır;
- mütləq hamamda ventilyasiya borusu, qapının aşağı hissəsində deliklər olmalıdır! Hamamı isti saxlamaq üçün bunları bağlamaq olmaz!
- tüstü bacalarını, ən azı, ildə iki dəfə təmizlətməliyik! Bu məqsədlə, mənzil kommunal istismar sahələrinə və ya bacaların təmizlənməsi ilə məşğul olan xüsusi lisenziyalı özəl şirkətlərə müraciət edilməlidir.

**Yadda saxlayın!** Dəm qazı iysizdir, hiss edilmir! Amma bundan zəhərlənmənin əlamətlərini hiss edə bilərik: baş ağrısı, baş gicəllənməsi, ürək bulanması, halsızlıq.

Dəm qazından zəhərlənmiş insanı dərhal təmiz havaya çıxardırıq, nəfəsalmasını çətinləşdirən geyimlərdən azad edirik, təcili tibbi yardım çağırırıq.

**Unutmayaq:** Qaydalara biganəlik - həyatımıza təhlükədir!

Təhlükə zamanı 112-yə zəng edin!

*Fövqəladə Hallar Nazirliyi*



## "112" / "101" QAYNAR TELEFON XƏTTİNƏ BU HALLARDA MÜRACİƏT ETMƏK OLAR:

- *texnogen qəzalar və təbii fəlakətlər baş verdikdə; yanğın baş verdikdə və ya yanğın törədə biləcək hallar yarandıqda;*
- *uşaqlar, yaşlı və ya xəstə insanlar qapı arxasında və ya hər hansı köməksiz vəziyyətdə qaldıqda;*
- *ağır yol-qəza hadisələri baş verdikdə;*
- *tikintidə və sənaye müəssisələrində qəzalar baş verdikdə və ya ağır nəticələrə gətirib çıxara biləcək hallar müşahidə edildikdə;*
- *su hövzələrində xilasetmə işləri ilə bağlı köməyə ehtiyac yarandıqda;*
- *radioaktiv, kimyəvi və digər zəhərli maddələr və ya onların daşınması üçün istifadə olunan konteynerlər, habelə, partlayıcı maddələr və silah-sursat aşkar olunduqda və ya itirildikdə;*
- *digər qəzalar zamanı köməyə ehtiyac yarandıqda (meşədə azdıqda, qayıqla dənizin dərinliklərinə getdikdə və s.);*
- *istisna hallarda digər xidmətlərlə (102, 103, 104) əlaqə yaratmaq mümkün olmadıqda.*

✓ **"112"/ "101" qaynar telefon xəttinin operatorları 24 saat ərzində (fasiləsiz) daxil olan məlumatları qəbul edir və tədbirlər görülməsi üçün müvafiq strukturları xəbərdar edir.**

✓ **"112"- yə respublikanın bütün şəhər və rayonlarından sabit telefon şəbəkəsi (ATS) telefonlarından, bütün növ taksafonlardan, GSM ("Azercell ", "Bakcell", "Nar Mobile") və CDMA tipli mobil telefonlardan ödənişsiz zəng etmək olar.**

✓ **"112" qaynar telefon xəttinin xidmətindən Azərbaycan Respublikasının ərazisində olan bütün şəxslər, o cümlədən "Rouminq" xidmətindən istifadə edən xarici ölkə vətəndaşları istifadə edə bilərlər.**

✓ **"112"/ "101" qaynar telefon xəttinə zəng etməklə baş verə biləcək hər hansı bədbəxt hadisənin qarşısını almaq, qəzaya düşən insanları ölümdən xilas etmək, əzablarını xeyli yüngülləşdirmək, maddi itkiləri isə azaltmaq mümkündür.**

✓ **"112"/ "101"-ə zəng edən şəxs hadisə və insidentin yeri barədə dəqiq və ətraflı məlumat verməlidir.**

**Allah rəhmət eləsin**

Fövqəladə Hallar Nazirliyinin Akademiyasının kollektivi

**DİLARƏ ƏHMƏDOVANIN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

Təsisçi: Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi

Həftəlik ictimai-siyasi qəzet

Redaksiyanın ünvanı: AZ 1033 Bakı şəhəri, Əliyar Əliyev küçəsi, 3
Tel: 566-86-70
566-86-74
566-86-79
Faks: 566-86-71

Qəzet Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi 1873

ABB Nəsimi filialı
Kodu: 805614 VÖEN: 9900001841
Müxbir hesab: 0137010002944
S. W. İ. F. T. Bik:İBAZAZ2X
H/h N-si: 33308019949711933207
VÖEN: 1400976751

"Fövqəladə Hallar Nazirliyinin qəzeti" -nin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "CBS Polygraphic Production" nəşriyyatında çap edilmişdir
İndeks 0572
Tiraj 1 024